# SOSİAL oriyentir



# Qış fəslinin sehri paytaxt küçələrində



**"Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkası hər il dekabr ayında Bakının mərkəzi Fəvvarələr Meydanında keçirilir. Bu il də yarmarka 16 dekabrdan 15 yanvar 2025-ci ilə qədər hər gün səhər saat 11:00-dan axşam 23:00-dək açıqdır. Soyuq hava şəraitinə baxmayaraq, ziyarətçilər həm alış-veriş edir, həm də xeyriyyə məqsədli tədbirlərdə iştirak edirlər.**

**Paytaxt sakini Gülnar Şahbazova** dedi: "Artıq bir neçə ildir ki, bu yarmarkaya gəlirəm və burada maraqlı insanlarla tanış oluram. Xüsusilə yerli mətbəxin ləziz təamlarından dadmaqdan zövq alıram. Hər il yarmarka fərqli atmosfer təqdim edir, həmin dəyişikliyi və inkişafı müşahidə etmək maraqlıdır. Yarmarka, eyni zamanda mədəniyyətin, incəsənətin və xalq yaradıcılığının nümayiş etdirildiyi məkan kimi böyük əhəmiyyət kəsb edir".



Gülay Əhmədova



Gülnar Şahbazova



Rəvan Əliyev







**"Fettuçini" stendinin aşpazı Rəvan Əliyev** "Soyuq əllər, isti ürək" yarmarkasında ilk dəfə iştirak etdiyini söylədi: "Stendimiz artıq bir neçə ildir ki, burada yer alır. Yarmarka hər zaman böyük maraqla qarşılanır və insanlar burada yeni dadları kəşf etməyi çox sevirlər. Xüsusilə, fettuçini yerli sakinlər tərəfindən çox bəyənilir və tez-tez sifariş olunur. Həm də yarmarkanın atmosferi olduqca özəldir və burada iştirak etmək insana böyük zövq verir. Mənim üçün belə yarmarkalar təkcə yemək təqdimatı deyil, həm də insanlarla birbaşa ünsiyyət qurmaq və onların təəssüratlarını öyrənmək üçün yaxşı fürsətdir".

**Gülay Əhmədova** "Soyuq əllər, isti ürək" yarmarkasının xeyriyyə məqsədilə təşkil edilməsini çox müsbət bir təşəbbüs kimi qiymətləndirdi: "Belə tədbirlər həm sosial dəstək üçün önəmlidir, həm də insanları bir araya gətirərək həmrəylik mühitini gücləndirir. Yarmarkada təqdim edilən təamların dadı və keyfiyyəti də yüksək səviyyədədir. Burada müxtəlif ölkələrin mətbəxlərindən olan təamları dadmaq əsl kulinariya səyahətidir. Həmçinin yarmarka əyləncəli və rəngarəng atmosferilə insanların ruhunu oxşayır. Belə tədbirlər təkcə xeyriyyə məqsədi daşımır, həm də yerli mədəniyyəti və adət-ənənələri tanıtmaq üçün böyük fürsətdir".

"Soyuq əllər, isti ürək" yarmarkası bu il öz rəngarəngliyi ilə seçilir. 64 böyük və 20 balaca evdən ibarət yeni qurulmuş möhtəşəm stendlər qonaqların istifadəsinə verilib. Ziyarətçilər 3 fərqli restoranın təklif etdiyi zəngin menyulardan da zövq ala bilərlər. Yarmarkada əyləncə sevənlər üçün oyun zonası, uşaqlar və böyüklər üçün nəzərdə tutulmuş fotozona, 4D kinoteatr, qorxu otağı və maraqlı labirint otağı kimi xüsusi məkanlar quraşdırılıb. Kiçik köşklər, müxtəlif tematik guşələr və Santa evi isə yarmarkanın bayram əhval-ruhiyyəsini daha da artırır. Əraziyə quraşdırılmış böyük şam ağacı bütün iştirakçıların diqqətini cəlb edən əsas elementlərdəndir. Yarmarka xoş bayram ovqatı və unudulmaz anlar bəxş edir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**



